Kamal Talıbzadə 14 avqust 1923-cü ildə Bakı şəhərində anadan olmuşdur. Bakıdakı 9 və 14 №-li məktəbləri bitirmişdir. 1940-1945-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almış, universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Tələbə ikən Azərbaycan Dövlət universitetinin "Tərifnamə"sini almışdır.



# Kamal Talıbzadə

1945-ci ildə Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat və Dil İnstitutunun aspiranturasına qəbul olunmuş, 1949-cu ildə "Abbas Səhhətin həyat və yaradıcılığı" mövzusunda dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. 1965-ci ildə ADU-nun Elmi şurasında filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün "XX əsrin əvvəllərində Azərbaycan ədəbi tənqidi" mövzusunda dissertasiya müdafiə etmişdir. 1980-cı ildən Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, 1989-cü ildən Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü (akademiki), 1953-cü ildən Azərbaycan Yazıçılar İttifaqının, 1976-1987-ci illərdən Azərbaycan Sovet Ensiklopediyası dil və ədəbiyyat elmi redaksiyasının, 1977-ci ildən bu günədək İctimai-Siyasi Təhqiqatlar İnformasiya İnstitutunun elmi şurasının üzvü, 1980-cı ildən SSRİ EA Rəyasət Heyətinin qərarı ilə Sovet Türkoloqları Komitəsinin, 1987-ci ildən Türkmənistan EA-nın Məhdimqulu adına Dil və Ədəbiyyat İnstitutunun nəzdindəki doktorluq müdafiə şurasının, 1994-cü ildən Muzey işi üzrə Respublika Elmi Metodiki Mərkəzin, 1994-cü ildən YUNESKO-nun nəzdində Beynəlxalq muzeylər Şurası Azərbaycan Milli Komitəsinin, 1997-ci ildən Füzuli adına Beynəlxalq Mükafat Komitəsinin 1997-ci ildən Azərbaycan Yazıçılar Birliyinin ağsaqqallar şurasının, 1997-ci ildən "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinə hazırlıqla əlaqədar Dövlət Təşkilat Komissiyasının üzvü olmuşdur.

Dünyanın müxtəlif ölkələrində keçirilmiş Beynəlxalq, regional və respublika miqyaslı elmi konfransların iştirakçısı olmuşdur.

1968-ci ildə Azərbaycan "Bilik" cəmiyyətinin "Fəxri fərmanı"nı almışdır, 1969-cu ilin 21 fevralında SSRİ-nin vətəndaşlıq müdafiəsinin əlaçısı, müharibə iştirakçısı və əmək veteranları cəmiyyətinin üzvüdür. 1982-ci ildə "Azərbaycanın Əməkdar Elm xadimi" fəxri adı, 1983-cü ildə "Qabaqcıl maarif xadimi" adı, 1984-cü ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə "Əmək veteranı" medalı ilə, 1985-ci ildə Azərbaycan SSR "Bilik" cəmiyyətinin "Fəxri fərmanı" ilə, 1987-ci ildə Azərbaycan "Əmək veteranı" medalı ilə, 1998-ci ildə Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm" mükafatı ilə, 1998-ci ildə Azərbaycan Respublikasının "Şöhrət ordeni" ilə təltif olunmuşdur.

Akademik Kamal Talıbzadə çoxsahəli, məhsuldar yol keçmiş, onun respublikamızdan kənarda elmi mərkəzlər və alimlərlə sıx yaradıcılıq əlaqələri olmuşdur. Alimin müxtəlif illərdə onlarca həcmli monoqrafiyaları və elmi kitabları, yüzlərlə sanballı məqalələri çap edilmişdir. Yüksək professional səviyyədə yazılmış kitablar müəllifə geniş şöhrət qazandırmışdır.

1945-ci ildə Nizami adına Ədəbiyyat və Dil İnstitutunun kiçik elmi işçisi, 1940-cı ildə Nizami adına Ədəbiyyat və Dil İnstitutunun baş elmi işçisi, 1950-52-ci illərdə Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafe-drasının müəllimi və Ədəbiyyat İnstitutunda şöbə müdiri, 1960-1981-ci illərdə Nizami adına Ədəbiyyat və Dil İnstitutunun elmi işlər üzrə müdiri, 1960-1981-ci illərdə Nizami adına Ədəbiyyat və Dil İnstitutunun elmi işlər üzrə direktor müavini, 1968-ci il Azərbaycan EA-nın Rəyasət Heyətinin qərarı ilə Nizami adına Ədəbiyyat və Dil İnstitutunun direktoru vəzifəsini icra etmişdir. 1980-1986-cı illərdə Nizami adına Ədəbiyyat İnstitutunda Tənqid tarixi və nəzəriyyəsi şöbəsinin müdiri, Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun akademik müşaviri, hal-hazırda baş elmi işçidir.

K.Talıbzadə onlarla namizədlik, doktorluq dissertasiyalarının yazılmasına elmi rəhbərlik etmişdir. Hazırda akademik Kamal Talıbzadə Azərbaycan ədəbiyyatı ixtisası üzrə Birləşdirilmiş Doktorluq Müdafiə Dissertasiya Şurasının sədridir.